# BMT Azərbaycanla hesablaşdı

## Təhlükəsizlik Şurası Qarabağdakı antiterror tədbirlərinə etiraz etmədi

Yenə də çox həvəsli və ümidli idilər... Elə zənn edirdilər ki, dünyanın ən böyük siyasi təşkilatı Fransanın budəfəki yalan və uyudurmalarının fitvasına gedərək Azərbaycana qarşı hansısa qətnamə qəbul edəcək, kəskin sanksiyalar olacaq və bununla da Emmanuel Makronun, eləcə də son vaxtlar erməni lobbisinin buyruq qulu olduğunu açıq-aşkar biruzə verən Cozep Borrelin əlinə yaxşıca "girəvə" düşəcək.

Amma bu ali qurum uydurmalara, iftiralara deyil, həqiqətlərə əsaslandı. Budəfəki yığıncaq da müzakirələrlə yekunlaşdı, nə hansısa qərar verildi, nə də hansısa sanksiya qəbul edildi. Buqələmunların canfəşanlığı yenə də bumeranq effekti verdi.

Maraqlısı odur ki, hətta Nikol Paşinyan Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı Qarabağın erməni sakinlərinin həyatına təhlükə olmadığını bəyan etdiyi halda, Fransa, Almaniya, eləcə də Cozep Borrelin timsalında Avropa İttifaqı ortalığa düşərək "canfəşanlıq" etməyə başlamışdı. Guya, adları çəkilənlər və onlara dəstək verən digərləri Qarabağın erməniəsilli sakinlərinin hüquq və təhlükəsizliyinə olan "təhdid"lərdən ciddi "narahatçılıq" keçirirmişlər.




Təhlükəsizlik Şurasının iclasında Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın siyasi şousu isə əsl erməni xislətinin nümayişi oldu. Çünki ölkənin baş naziri antiterror tədbirlərinin Qarabağda yaşayan ermənilərin həyatı üçün təhlükə törətmədiyini, mülki əhali arasında kütləvi tələfat barədə iddiaların əsassız olduğunu söylədiyi halda, XİN başçısının yalan iddialar səsləndirməsi, Hayastanın dövlət siyasətindəki səbatsızlığın, ikiüzlülüyün bariz təcəssümü oldu.

Lakin Təhlükəsizlik Şurası bu dəfə də uydurmalara, Mirzoyanın və havadarlarının "gözyaşları"na inanmadı. BMT Azərbaycanla hesablaşdı və Qarabağda aparılan lokal xarakterli antiterror tədbirlərinə etiraz etmədi.

Bu prosesdə ən çox "var-gəl" edən Makronun istəyi yenə də baş tutmadı. Çünki Fransa prezidenti elə düşünürdü ki, "kiçik bacısı" ilə birgə avqustun 16-da Təhlükəsizlik Şurasına etdikləri müraciət zamanı yedikləri tərs şillə bu dəfə Azərbaycana dəyəcək. Amma avqustun 16-da Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin, sentyabrın 21-də isə xarici işlər naziri Ceyhun Bayramovun yalnız faktlara əsaslanan fikirləri bütün iddiaları alt-üst etdi. Ceyhun Bayramov fotofaktları bütün iştirakçılara göstərərək dedi ki, Azərbaycan Silahlı Qüvvələri antiterror tədbirləri zamanı yalnız qeyri-qanuni hərbi obyektlərin zərərsizləşdirilməsi üçün yüksək dəqiqliyə malik döyüş sursatlarından istifadə etməklə özünü nümunəvi peşəkarlıqla aparıb. Mülki şəxslərə dəyə biləcək yan təsirlərdən yayınmaq üçün yaxınlıqda olan legitim hərbi obyektlərə zərbələr endirməkdən çəkinib. Əgər məqsəd dinc sakinləri hədəf almaq və ya guya "etnik təmizləmə" aparmaq olsaydı, Azərbaycan Silahlı Qüvvələri başqa cür hərəkət edərdi.

Beləliklə, Təhlükəsizlik Şurasının bu iclası da antiazərbaycançı şəbəkə üçün fiasko oldu. Bu həm də Azərbaycan diplomatiyasının uğuru, aylardır əsassız iddialarla çıxış edən, ölkəmizin əleyhinə sanksiyanın qəbul edilməsi üçün dəridən-qabıqdan çıxan Emmanuel Makronun, Cozep Borrelin acı məğlubiyyəti idi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 23 sentyabr.- S.3.